Tarix və onun problemləri, № 4 2011

**CƏFƏR PAKNƏZƏR**
***(Department of consultation, Parsabad Moghan Branch, Islamic Azad University,Parsabad Moghan, Iran)***
***BDU-nun psixologiya kafedrasının aspirantı***
***e-mail: Jafar.paknazar8@yahoo.com***

# CİNSİ, YAŞ VƏ PEŞƏ BAXIMINDAN İNTERNET ASILILIĞININ TƏSNİFATI

**Açar sözlər:** Internet, yeniyetmə və tələbələrdə internet asililiğinin təsnifatı.
**Ключевые слова:** Интернет, Интернет-зависимость у студентов и подростков, ее классификация.
**Keywords:** the Internet, Internet dependence at students and teenagers, its classification.

Müqayisədə uşaqlarda daha çox internet asılılığı əmələ gəlir. 2005 ci ildə 77 milyondan artıq uşaq kompyuter aksesuarından istifadə etmişlər. Yeniyetmələrin psixoloji problemləri və məsələləri arasında "internet asılılığı" o mühüm və əsas hallardan hesab olunur ki, digər asılılıq növləri kimi iztirab, tənhalıq hiss etmək, pərişançılıq, özünə güvənməmək və s.... ilə birgədir. Bu o zaman baş verir ki, 200 tələbə üzərində aparılan tədqiqatlardan məlum oldu ki, onların 77%- i Internet asılılığı təhlükəsizliyi ilə üz-üzədirlər.

İsna "Yeniyetmələr" jurnalistinin hesabatına görə, bu tip asılılıq nə təkcə ictimai və psixoloji nəticələrə malikdir, bəlkə mədəni, maliyyə və cismi sahələrdə cavanlara çoxlu zərərlər vurur. Hər halda online- xidmətlərin geniş yayıldığı bir vaxtda internet asılılığı daha da gücلənir.

Bu arada qeyd edək ki, "WEB" faydalı və zəngin informasiyaya malik olsada, lakin asılı insanlarda bu ziyanlara, psixoloji və davranış pozuntulara gətirib çıxarır. Psixoloqlara görə, ifrat dərəcədə interenetdən istifadə şəxsin fiziki və fikri sağlamlığı üçün təhlükəli ola bilər. Çünki bu halda internet asılılığı şəxsin uyğun istifadəsini pozur. Əgər bir şəxs internet asılısı olarsa onun istifadəsi nizamsız olur. Psixoloqlardan birinin fikrinə görə, əgər həftə ərzində 19 saata qədər internetdən istifadə edirsə onda bu internetdən istifadənin normal və təbii halı hesab olunur. [1.s.34]

Amerikada aparılan araşdırmalarda da məlum olubdur ki, yeniyetmələr arasında internet istifadəçiləri daha çoxdur. Uşaqlar arasında olan müxtəlif yaş qruplarında internet asılılarının sayı artmaqdadır. Beləki 2005 ci ildə 77 milyondan artıq insan internetə daxil olublar.

İsnanın hesabatına görə, psixologiya üzrə magistr Fərahəngiz Nademi və kompyuter mehəndisi üzrə tələbə Müstəfa Səidi Rizvani, Məşhəd Azad Universitetin 200 tələbəsi arasında keçirilən tədqiqatda belə nəticəyə gəldi ki, tələbələrin 77%-i internet asılılığı təhlükəsi ilə üzbəüzdürlər. 14% isə qeyd edibdir ki, internet asılılığı onların işləməsinə çox böyük təsir qoymuşdur.

Bu tədqiqatın nəticələri sübut edir ki, internet asılılığı qızlara nisbət oğlanlarda daha çoxdur. Habelə valideynli təhsil görmüş insanlar arasında bu göstərici daha yüksəkdir. [2.s.45]

Habelə qeyd etmək lazımdır ki, valideynləri sağ olan yeniyetmələrdə bu göstəricinin yüksək olmasının səbəblərindən biri kimi valideynin daima işdə olması uşağın internet asılısı olmasına gətirib çıxarır. Başqa sözlə cavbanlarda internet asılılığı daha çox olmalıdır. Çünki oğlan uşaqlarında tənhalıq hissi, pərişanlıq, özünə güvənməmək, internetdə çox vaxt keçirtmək, xasiyyət dəyişkənliyi, peşə, ictimai və şəxsi problemlərin çox olması onların qızlarla müqayisədə internetə daha çox üz gətirmələrinə səbəb olur.

Koreyalı tədqiqatçılar deyirlər ki, yeniyetmələr nə qədər internet ilə çox məşğul olurlarsa bir o qədər də onlarda peşimançılıq çoxalmağa başlayır. İran informasiya şəbəkəsinin mətbuat şöbəsinin verdiyi xəbərə görə, Koreya dövlətində 425 şagird arasında keçirilən araşdırmada məlum oldu ki, internet asılılığı olan şəxslərin çoxu pərişançılqdan əziyyət çəkirlər.

Bu araşdırmalarda məlum oldu ki, yeniyetmələrin 11%- ində möhkəm dərəcədə internet

asılılığı vardır. İkinci mərhələdə aydın oldu ki, internet asılılığı olan insanlarda pərişançılıq aşkar formada idi.

Bu mütaliənin araşdırmaçıları qeyd edirlər ki, yaşından, cinsiyyətindən, təhsil dərəcəsindən asılı olmayaraq istifadəçilər yeni bir şey axtarışındadırlar. Onlar habelə qeyd edirlər ki, internetin pərişançılq yaratması, yoxsa pərişançılığın asılılq yaratması hələ məlum deyil.

**Uşaqlar və yeniyetmələr üçün virtual aləmdə təhlükə**

Yeni əsrləri informasiya inqilabı əsri adlandırırdılar. Bu əsrin ən aşkar əlaməti informasiya partlyışıdır. Lakin bunun faydası ilə yanaşı özünəməxsus təhlükələri də vardır. Bu fenomen bir sıra faydalara malik olmaqla yanaşı eyni zamanda insan mədnəiyyətini korlayan vasitələrdən biridir.İnternet ata, ana və uşaqlar üçün eyni səviyyədə təhlükəli ola bilər. Ata və analar üçün ona görə qorxuludur ki, uşaqları internetdən lazım olan saytlara baxmazlar, uşaqlar üçün ona görə qorxuludur ki, onlar lüzumsuz və azdırıcı saytlara baxa bilərlər. Bununla belə uşaqlar üçün internet cəzbedici olduğuna görə və onların qarşısını ala bilən bir şeyin olmadığına görə onlar virtual aləmdə daha çox təhlükə ilə qarşı-qarşıyadırlar. [3.s.32]

Uşaqlar internetdən daha çox fayda apara bilirlər. Bununlada onlar digər cəmiyyətlərdə olduğu kimi cinayətə məruz qala bilərlər. Bu məqalədə uşaqların internetdə rastlaşa biləcəyi bir neçə təhlükə halları sadalanmışdır.

**Nämünasib səhnələrin tamaşası:** Qeyri-əxlaqi məsələlər qarşısında uşaqların köməksiz qalması onun təhlükələrə məruz qalmasına gətirib çıxarır. Uşaqlar məxsusən də yeniyetmələr çox vaxtlar cinsi məsələlər haqqında daha çox maraqlanırlar. Mümkündür ki, onlar valideyn nəzarətindən yayınaraq ailədən xaric əlaqələrin arxasıyca düşşünlər. Bəzi hallarda uşaq və yeniyetmələr internet yolu ilə cinsi partnyor tapmağa meyilli olurlar. İstismarçılar bu məsələdən məhartələ istifadə edib öz məqsədlərini həyata keçirirlər. Habelə bəzən uşaqlar öz yaşıdları tərəfindən bu işə həvəsləndirililər. Bəzən isə bu cür uşaqlar istismarçıların alətinə çevrilərək onun ziyanlı tərəflərini görə bilmirlər.

**Qeyri-münasib və ziyanlı saytlar:** Yaddan çıxartmamq lazımdır ki, bir çox saytların məzmununa görə onlara etimzad etmək olmaz. Bu problemi həll etmək üçün valideyn və tərbiəyçilər özləri bir sıra münasib saytları seçərək favorite bölməsinə əlavə etməlidirlər. Uşaqların bir çoxu informasiya əldə etmək məqsədi ilə iqtisadi və ticari sui- istifadəyə məruz qalmışlar. Süzgəcdən keçirilmiş proqramların istifadəsi faydalı ola bilər. Bu proqramlar yüz faiz etimad ediləsi proqramlar olmasalarda bir çox hallarda onların köməyi ilə uşaqların istifadəsinə münasib saytlar vermək olar. [4.s.10]

Maliyyə və qanuni məsələlər: Tədqiqatlar göstəribdir ki, məktəbə qədər uşaqların kompyuterdən istifadəsi onların bacarıq imtahanı vaxtı qiymətlərini aşağı sala bilər. Məlumdur ki, bu məsələ çox dolaşıqdır. Amma bunu yaddan çıxartmamaq lazımdır ki, əgər adi oyunların yerini kompyuter oyunları tutarsa onların nitq qabiliyyəti də zəifləyər.

Fiziki təhlükələr: Mümkündür ki, uşaq aldığı yanlış informasiya üzündən özünün və ailəsinin təhlükəsizliyini təhlükə qarşısında qoysun. Uşaqların elektron poçt vasitəsi ilə məlumat alaraq özünü əzab-əziyyətə salması da digər təhlükələrdən biridir.

Dəyərlərə ziyan:

Mümkündür ki, insanlar yanlış məlumat üzündən yeni mədəniyyətin təqdim etiyi dəyərlərə aludə olaraq, öz yerli adət-ənənələrini təhlükə ilə üzbəüz qoyurlar. Bu dəyişiklik səbəb olur ki, adət-ənənələr, dəyələr, informasiya texnologiyalar alətlərindən istifadə etməklə təhrif edilmiş formada gələcək nəsillərə ötürülmüş olsun.

Kişilərlə müqayisədə qadınlar daha çox internetdən istifadə edirlər.

Bir araşdırmadan alınan nəticəyə görə müəyyən edilibdir ki, Amerikada qadınlar kişilərdən daha çox internetdən istifadə edirlər. Bununlada internetin bir kişi sahəsi olması fikri rədd edilir. “Online qadınlar” məlumatının yazıçısı Debra Ahu Vilyamson deyir: Amerikada 90/9 milyon kişi və

97/2 milyon qadın isə internetdən istifadə edirlər. Bu günlərdə Britaniyalı qadınlarda internetdən istifadə sahəsində kişiləri qabaqlayırlar.[5.s.53]

Borna yeniyetmə klubunun məlumatına görə, cəmiyyət və iqtisadiyyat sahəsində olan böyük nəzəriyyəçilər ümumiyyətlə inkişaf etmiş ölkə anlayışını izah verərkən hədəflərin dəyişilməsi üçün çoxlu əmsallar söyləmişlər. Bu mövzunun mühüm əmsallarından biri bu sahədə qadınların təsirə malik olmalarıdır. Meyar bundan ibarətdir ki, görəsən inkişaf məsələsində meyarların inkişafından qaynaqlanan istifadə, vətəndaşların xidmətlər və onların keyfiyyətinin artırılmasına əlçatmasının asanlaşmasına səbəb olurmu?

Bu məlumata görə bir neçə il öncə Fransız jurnalist öz xəbərində deyirdi: Bir araşdırma nəticəsində məlum olubdur ki, Amerikada qadınlar kiçilərlə müqayisədə internetdən daha çox istifadə edirlər. Bununlada internetin kişi sahəsi olması fikri rədd edilir.

Debra Ahu Vilyamson deyir: Amerikada 90/9 milyon kişi və 97/2 milyon qadın isə internetdən istifadə edirlər.

Onun sözlərinə görə qadınların ictimai əlaqəsi çox yüksəkdir. İnternetdə onların ictimai əlaqələrini daha da asanlaşdırmışdır. Virtual istifadə sahəsində qadınlar daha çox istifadə etsələrdə, kişilərdən fərqli olaraq onlar faydalı informasiya axtarışında olurlar.

Bu hesabata görə çoxlu qadınlar bir-birindən fərqli məqsədlərlə, müxtəlif yaşlarda, fərqli təhsil səviyyəsində və müxtəlif təbəqələrdən olmaqla internet dünyasına daxil olurlar.

Habelə tədqiqatçılar öz araşdırmalarında belə nəticəyə gəldilər ki, qızların çoxunun informasiya texnologiyaları və kompyuterə həvəsləri olmur. Əlbətdə bu daha çox orta məktəb qızlarında müşahidə edilir.

Mövcud statistikaya görə, 1994-95 ci illər arasında təkcə orta məktəbdə təhsil alan qızların 42% texnoloji təlimlərdə iştirak etməyə meyl göstərmişlər. Bu göstərici 1995-96 cı illər arasında 42/3 % -ə qalxdı. Bunu da qeyd etmək lazımdır ki, kompyuter siniflərində iştirak etmək üçün aparılan statistika da buna bənzər olmuşdu. Mütəxəssislər başa düşdülər ki, bu cür mövzulara kişilər daha meyillidirlər.

British Columbia tədqiqatlar müəssisəsi tərəfindən aparılan araşdırmalar sübut edir ki, qeyd edilən statistika və rəqəmlər 1990 ci illərdən sonra dəyişilmişdir. Qadınların kompyuter siniflərinə meyli yoxdur deyilsədə lakin indi görürük ki, bəzən onların iştirakı kişilərdən də artıq olur.

Buna görə də Kanada dövləti öz cəmiyyətində apardığı araşdırmalardan sonra bildirdi 2002 ci ilə görə Kanada da 12 milyon evdar qadının 7/2 milyonu davaml formada internet ilə məşğul olurlar. Bu insanlar iş yerindən, evdən, təlim mərkəzləri, ümumi kitabxanalar və digər yerlərdən internetə qoşulmağa çalışırdılar.[5.s.56]

Bu hesabata görə, 2000 ci ildə 2000 ci ildə evdar qadınların 51%- nin internetə çıxış imkanı olmuşdur. Amma bir il ərzində bu rəqəm 60% çatıbdır ki, bu arada 2/75 milyon nəfər gündəlik olaraq gündəlik olaraq internetdən ali təhsil və təlim kurslarında iştirak etmək üçün istifadə edirlər.

Qadınların virtual aləmə səyahətinin əsas məqsədi axtarış saytlarını gəzmək, təlim mərhələsini sovuşdurmaq, idari işləri yerinə yetirmək və s.. olmuşdur. Deyilənlərə görə 2001 ci ildə internetə daxil olan Kanadalı qadınların 12 % - dən çoxu öz təhsil mərhələlərini müvəffəqiyyətlə başa vura bilmişlər. [6.s.8]

Yeni bir tədqiqat göstərir ki, bu günlər Britaniya qadınları kişilərlə müqayisədə daha çox internet və onunla bağlı olan şeylərdən istifadə edirlər. Net value tədqiqat müəssisəsi vasitəsi ilə aparılan araşdırmalar sübut edir ki, may ayı ərzində 5/8 milyon ingilis qadını internetdən istifadə etmişdir ki, bu göstərici 2005 ci ilin əvvəllərindən başlayaraq 30 % və ya 1/8 milyon nəfərin artması deməkdir. Bu ay ərzində qadınların hər biri orta hesabla 462 dəqiqə öz vaxtını internetə sərf edibdir ki bu göstərici kişilərdə 414 dəqiqəyə bərabərdir. Qeyd edilən statistikaya görə qadınlarla müqayisədə kişilər internetə daha həvəskar olsalarda amma xanımlar üçün yaradılan məxsusi saytlar çox olduğuna görə onların internetdən istifadəsi daha rəngarəngdir.

Belə bir nəticəyə hətta Ərəbistanda da rast gəlinir. Tədqiqatlar göstərir ki, burada qadın azadlığına məhdudiyyət qoyulmasına baxmayaraq amma yenə də istifadəçilərin çoxunu qadınlar təşkil edir. Hətta Ərəbistan rəhbərliyi bu fikirdədir ki, bu ölkənin qadınlarının üç ildə əldə etdikləri elm, keçmiş illərdə əldə edilən elmlərdən çoxdur.

Bornanın məlumatına görə, internetdə weblaq yazmaqla məşğul olan qız və gəlinlər özlərindən bir nəsil əvvəlki qadınlarla müqayisədə zahiri dözülməz olmuşlar. Onlar digərlərinin onlar barəsində nə dediklərinin intizarında olmadan, ana və nənələrindən daha rahat formada öz barələrində məxsusi və real həyatdan söhbət açırlar.[7.s.12]

Bunların hamısı onu göstərir ki, müasir qadın texnologiyadan istifadə də özünü haqlı bilir. Hətta əgər kişilərlə çiyin-çiyinə evdən xaric məşğuliyyəti olmasa belə. Virtual aləmdə informasiya əldə etmək və hətta əylənməkdə özünü haqlı bilir.

## ƏDƏBİYAT:

1. Bullen, Pat and Harré, Niki (2000), The Internet: Its Effects on Fatety and Behaviour Implications for Adolescents, Department of Psychology ,University ofAuckland,November.
2. Chebbi, Prasanna and et al. (2000), Some Observations On Internet Addiction Disorder Research, Graduate
3. Studies Program in Computer Information Systems Southern University at New Orleans New Orleans ,LA 70126, USA, Journal of Information Systems Education Volume
4. DeAngelis, Tori (2000), Is internet addiction real ,?Monitor on Psychology, Volume 31`, No. 4, April.
5. Duran, Maria Garcia (2003 ),Internet Addiction Disorder, AllPsych Journal, 14 December.
6. Fenichel, Michael (2003 ),Internet Addiction: "Addictive Behavior, Transference or More ,?
7. Ferris, R., Jennifer (2002), Internet Addiction Disorder: Causes, Symptoms,and Consequences, Psychology Virginia Tech ,jferris@vt.edu.

**ДЖАФАР ПАКНЕЗЕР**
***(Университет Азад Ислам, Парсабад, Иран),***
***аспирант кафедры психологии Бакинского***
***Государственного Университета, Баку, Азербайджан***
***e-mail: Jafar.paknazar8@yahoo.com***

## КЛАССИФИКАЦИЯ ИНТЕРНЕТ-ЗАВИСИМОСТИ ПО ПОЛОВОМУ, ВОЗРАСТНОМУ И ПРОФЕССИОНАЛЬНОМУ ПРИЗНАКАМ

По сравнению с подростками и студентами у детей младшего и среднего школьного возрастов Интернет-зависимость проявляется в большей степени. Хотя электронная информация имеет и много полезных свойств, чересчур большой объем потребляемой информации проявляется в виде различных психологических расстройств. Согласно исследованиям американских ученых, подростки больше других возрастных групп пользуются услугами Интернета. Желание потребить больше информации приводит к материальным затратам. Необходимо обеспечить контроль над используемыми подростками и молодежью электронными программами.

Tarix və onun problemləri, № 4 2011

**JAFAR PAKNAZAR**
***(Department of consultation, Parsabad Moghan Branch, Islamic Azad University,Parsabad Moghan,Iran) the post-graduate student of chair of psychology of the Baku State University, Baku, Azerbaijan***
***e-mail: Jafar.paknazar8@yahoo.com***

# CLASSIFICATION OF INTERNET DEPENDENCE BY SEXUAL, AGE AND PROFESSIONAL SIGNS

In comparison with teenagers and students at children younger and average school age Internet dependence is shown in a greater degree. Though the electronic information has and many useful properties, too great volume of the consumed information is shown in the form of various psychological frustration. According to researches of the American scientists, teenagers more than other age groups use the Internet. The desire to consume more information leads to material inputs. It is necessary to provide control over used teenagers and youth electronic programs.

***Rəyçilər: t.ü.f.d. M.Musayev, t.e.d. Z.Hacıyev***